**Şpitsbergen adasının turizm baxımdan üstünlükləri**

Gözəlliyinə və hüquqi statusuna görə unikal olan və 63 min km2 sahəyə malik olan ərazi Norveçə aiddir.XVII əsrin əvvəllərində Şpitsbergendə balıqçılıq və balina ovu aktiv şəkil almışdır. XIX əsrin sonlarında isə gəmilərin əraziyə yan alması o səviyyəyə çatmışdır ki, Advent körfəzində mehmanxana tikilmiş və yayda orada Norveçdən gəmi ilə gələn turistlər qalırdılar. Rəsmi olaraq ada Norveçə aid olsa da, 1920-ci ildə imzalanmış Paris sazişinə görə istənilən ölkəyə burada təsərrüfat fəaliyyəti ilə məşğul ola bilər və arxipelaq hamı üçün açıqdır. Buraya gəlmək üçün viza tələb olunmur, burada sərhəd və gömrük yoxdur, mallar rüsumsuzdur. İstənilən emiqrant buraya pulu və işi olmaq şərtilə gəlib qala bilər. Hal-hazırda əhalini əsas məşğuliyyəti – kömür hasilatı və ekzotik turizmdir. Şimal Qütbünə turistlərin marağı, yaxın ada olan Şpitsbergeni (qədimdə Rusiyada Qrumant adlandırılırdı) də vacib turist mərkəzinə çevirmişdir.Şpitsbergen və ya norveç dilində Svalbard – 4 iri və mindən çox xırda adalardan ibarət Arktik arxipelaqdır.

Hal-hazırda Şpitsbergendə yaşayan əhalinin sayı 2500 nəfərdir. Norveç Şpitsbergeninin mərkəzi –Longerbüyn şəhərində 1400 nəfər əhali yaşayır və burada aeroport mövcuddur. Oslo şəhərindən Longerbyuyn şəhərinə həftədə bir neçə dəfə Braathens vəSASaviaşirkətləri tərəfindən aviareyslər reallaşır (uçuş 3-4 saat). Rus Şpitsbergeninin mərkəzi – Barentsburqa da ekskursiya marşrutları mövcuddur. Arxipelaq soyuq Arktika sularında yerləşir, lakin qərb hissə iqlim cəhətdən şərqdən fərqlənir. Belə ki, qərb ərazilərin iqliminə isti Qolfstrim cərəyanı təsir edir. Qərbi Şpitsbergendə orta temperatur qışda – -12°C; yayda isə 6°C-dir.

Hava şəraitinə görə Şpitsbergendə 5 mövsüm seçilir:

1. Qütb gecəsi – noyabrdan yanvara qədər uzanıb, qütb sayrışmaları dövrüdür.

2. Yanvarın axırı və fevral – Günəş yavaş-yavaş çıxmağa başlayır, gün uzanır

3. Mart-may – aprelin ortasından uzun qütb gündüzləri başlayır, Günəş batmır. Aprel – Şimal qütbünə səyahətlər üçün ən əlverişli vaxt hesab olunur.

4. İyun-avqust – aktiv quş bazarları mövsümüdür.

5. Sentyabr-noyabr – qütb gecələrinə keçid dövrü hesab olunur.